**BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ**

***№3 Sosial-siyasi elmlər seriyası 2013***

# PEDAQOGİKA

**UDC 378:303: 147**

## “QALIQ” BİLİKLƏRİN FORMALAŞMASINDA KOQNİTİV ELMLƏRİN METODOLOJİ ƏHƏMİYYƏTİ

**A.H.KAZIMZADƏ*, R.M.MAHMUDOVA**, Q.Y.ABBASOVA*****

***Bakı Dövlət Universiteti***

***akazimzade@yahoo.com*, social-sciences&dsk/az**,***

***q.abbasova@mail.ru*****

*Bu gün dünyada, dünyagörüşünün bəzi fəlsəfi əsaslarının itirilməsi ilə əlaqədar (xüsusilə dünyanın bütövlüyü, kainatın və insanın qarşılıqlı əlaqəsi ilə bağlı ontoloji təsəvvürləri və s.), ictimai şüurda onların kompensasiya edilməsi dərin özünüdərk istiqamətində gedir. Burada idrak prosesləri xüsusilə önə çıxır. Məlumdur ki, müasir fəlsəfi konsepsiyalar insan mövcudluğu problemləri ilə daha çox əlaqəlidir, burada tədqiq etmək üçün psixologiya, o cümlədən digər elm sahələrinin müxtəlif aspektləri təqdim olunur. Koqnitiv inkişaf məsələləri şəxsiyyətin sosiallaşması, təlim və özünü savadlandırma, öyrənmə prosesi üçün xüsusilə vacibdir.*

**Açar sözlər:** fəlsəfə, metodologiya, koqnitiv psixologiya, təlim, mütəxəssislərin hazırlığı, öz-özünə təhsil alma

Məlumdur ki, hər bir ölkənin rəqabətə dözümlülüyü, yəni təhlükəsizliyi həm də əhalinin təhsil səviyyəsi ilə müəyyən olunur. Dünya bazarlarında səmərəli şəkildə rəqabətə davamlı olmaq, ölkənin bütün mövqelərini gücləndirmək üçün təhsil sahəsində dərin islahatlara həmişə ehtiyac var. Islahatlar sırasında təhsil standartlarının dünya tələblərinə uyğunlaşdırlıması diqqət mərkəzində olmalıdır.

Təhsilin vacib məsələlərindən biri hər bir tədris prosesinin iştirakçısında, yəni bilikləri öyrənəndə qavramaq yolunun daha uğurlu və keyfiyyətli olmasıdır. Burada meyarlar müxtəlifdir və bunlardan biri diqqətimizi daha çox cəlb edir. Söhbət “qalıq” biliklərin formalaşması və səmərəliliyindən gedir. Burada əhəmiyyətli olan tərəf qalıq biliklərinin formalaşmasında nəzəri-metodoloji əsasların axtarılmasıdır. Hər bir sosial fəaliyyət sahəsində olduğu kimi, təhsilin  metodoloji əsasını da fəlsəfi biliklər təşkil edir. Yaşamağın

mənası, şəxsiyyətin bioloji və sosial tərəflərinin vəhdəti, cəmiyyətin tarixi inkişaf mərhələlərinin inkişaf xüsusiyyətləri, həyat tərzi, həyat üslubu, ictimai şüur və burada sosial psixologiya və ideologiya problemləri, sosial dəyərlər, sosial dərketmə və s. kimi problemlərin fəlsəfi səpgidə həlli təhsilin fəlsəfəsinin düzgün dərk edilməsi və burada fəaliyyətin təhlili və proqnozlaşdırılması üçün olduqca əhəmiyyətlidir. Bizi daha çox maraqlandıran sosial dərketmə ilə bağlı koqnitiv problemlərin nəzəri-metodoloji problemləridir.

XIX əsrin sonu - XX əsrin əvvəllərində Qərbi Avropa və Amerika sosioloqları Tonnis, Zimmel, Dürkheym, M.Veber, Pareto, Veblen öz yaradıcılıqlarında sosial reallığın mahiyyətini, sosial idrakın qnoseoloji xüsusiyyətlərini, elmi və dünyagörüşününün nisbətini təhlil edir, cəmiyyətin norma və dəyərlərini qiymətləndirməyə çalışırdılar. Nəticədə tarixi – təkamülçü yanaşma tədricən struktur – analitik yanaşma ilə əvəz olundu, nəzəri ideyalarla yanaşı empirik tədqiqatlar da genişləndi. Müxtəlif nəzəri oriyentasiyalar yarandı. Dürkheym pozitivist obyektivizmin, M.Veber yeni kantçılıq və həyat fəlsəfəsinin, Zimmel şəxsiyyətlərarası qarşılıqlı fəaliyyət prosesi ideyasının imkanlarından istifadə edirdilər.

Kiçik qrupların strukturu və dinamikası, insanların qarşılıqlı fəaliyyət formaları, şəxsiyyətlərarası münasibətlərin tipləri, şəxsiyyətin sosial ustanovkalarının formalaşması, qrup səviyyəsində qərarların qəbul olunması yolları, kommunikasiya vasitələri və s. kimi hadisələrin təhlil olunmasında böyük nəticələr əldə edilmişdi. Bu problemlərin təhlili metodikası ilkin etibarlı məlumatın əldə edilməsi üçün imkan yaradırdı.

Sosial texnologiyalardan təhsil problemlərinin öyrənilməsində də geniş istifadə edilməyə başlandı. Sosiologiyada tədricən sosial-psixoloji tədqiqatlar çoxalır (simvolik interaksionizm), sosial fəlsəfə ilə bağlı olan fenomenologiyanın rolu, ümumsosioloji nəzəriyyələr yaratmaq cəhdləri artırdı (Q.Qarfinkel, A.Qouldner, P.Sorokin, A.Etsioni və başqaları). Təhsil problemləri postindustrial, informasiya cəmiyyətində insan amilinin rolunun artması və yeni tipli istehsal – iqtisadi və sosiomədəni münasibətlərin yaranması şəraitində təhlil edilirdi. Təbii ki, bu zaman elmi-texniki tərəqqinin aparıcı roluna xüsusi diqqət yetirilirdi.

Məlum olduğu kimi, təhsil sayəsində mədəni sərvətlər hifz olunur, qorunub zənginləşdirilir və sonrakı nəsillərə ötürülür. Yeni texnoloji metodların tətbiqi və müvafiq biliklərin yenidən dəyərləndirilməsi ilə əlaqədar olaraq cəmiyyətdə önəmli sosial dəyişikliklər baş verir.

Hal-hazırda bütün, o cümlədən fəlsəfə sahələrinə aid elmlərdə koqnitiv - psixoloji problemlər ilk növbədə sinergetik dərketmə baxımından öyrənilir və tədqiq olunur [3]. Koqnitiv fəlsəfə sahəsi də koqnitiv elmlərin metodoloji dərketmə vasitəsi kimi qiymətləndirilir. Demək olar ki, bu vəziyyətdən daha çox psixoloqlar faydalanır. Bununla belə hesab olunur ki, ontologiya və epistemologiyanı fərqləndirərkən unutmaq olmaz ki, “bizim üçün tam dərkolunmaz

şeylər var və buna görə çox ehtiyatlı olmaq və biliklərin hədlərini varlıqda sərhədlərin axtarışı üçün bir fürsət saymaq olmaz” [1, 10].

Dərketmədə fəlsəfi yanaşmadan həm də psixoterapiya sahəsində fəal şəkildə istifadə olunur. Bu barədə Ollport (Allport, 1961) deyir ki, “bizim müzakirələrdə, müvafiq nəzəriyyələrdə özünü biruzə verən dərin fəlsəfi əsaslar olmalıdır”, yəni “insan təbiəti haqqında müxtəlif nəzəriyyələrin əsaslandığı ehtimallar nəzərə alınmalıdır” [2, 9].

Bundan başqa, humanitar elmlərin bir çox bölmələrinin və hər şeydən əvvəl psixologiyanın inkişafı nəticəsində fəlsəfənin yeni istiqaməti meydana gəldi: fəlsəfi ideyaların formalaşması və inkişafı aspektlərinin öyrənilməsi. Bu halda fəlsəfə yalnız psixologiyanın nailiyyətlərinə yox, “həm də epistemologiya, neyropsixoloqiya, sosiologiya (elmi biliyin sosial təhlili), kulturologiya, koqnitiv linqvistika, süni intellekt sahəsindəki tədqiqatlara söykənir” [4, 175].

Güman edilir ki, "bütün təfəkkür prosesləri müəyyən strategiyaları təşkil edir, və onları verbal və ya qeyri-verbal xüsusiyyətlər əsasında öyrənmək olar" [4, 175].

Təxminən son yüz ildə psixologiyanın məhz mental-psixoloji istiqamətinin yaranması təsadüfi deyil. İlk növbədə bu, insan təbiətinin istər fərdi, istərsə də ictimai planlarda tədqiqinə ehtiyacın artması ilə bağlıdır. Əvvəlki dövrlərdə bu sahədəki təcrübə fəal öyrənilirdi, lakin bunu universal nizam baxımından edirdilər: problemlərin insani ölçüsü həmişə kosmik ölçüsü ilə tutuşdurulur, müqayisə olunurdu, hətta bu müqayisə etmənin harmonik yolları axtarılırdı; belə axtarışlar dini təcrübədə, həmçinin Zərduşt, Aristotel, Heqel kimi nəhənglərin yaradıcılığında adi hal olmuşdu.

Məlumdur ki, fəlsəfə - düşüncə üslubudur; burada insan özü və dünya haqqında olan təsəvvürlər əsasında dünyaya öz münasibətini bildirir. Adətən rasional və irrasional düşüncə üslublarını fərqləndirir. Bunların hər biri fəlsəfədə kifayət qədər dərindən tədqiq edilmişdir. Sosial proseslərdə mühüm rol oynayan bu sahənin indi də xeyli nümayəndələri vardır. Fəlsəfə ilə koqnitiv fəlsəfənin ümumi sahəsi məhz dərketmə prosesi ilə bağlıdır. Bununla da fəlsəfi sistemlər tərəfindən insan şüurunun dərketmə səviyyəsində kompleksli, sistemli təhlil imkanını yaradırlar. Burada ilk növbədə söhbət hafizə, təxəyyül, dilin işarələr sistemi vasitəsi ilə həyata keçirilən düşüncə fəaliyyətindən gedir. Fəlsəfədə bu problemlə əsasən epistemologiya nümayəndələri məşğul olurlar.

Ədalət naminə qeyd etməliyik ki, filosoflar həmişə təfəkkür proseslərinin müxtəlif tərəfləri ilə yaxından maraqlanırdılar, amma bu prosesə həm fizioloji, həm də sosial səpgidə insan zehninin dərin tədqiqatlarına təkan vermiş böyük təbii-elmi inqilablar xüsusilə təsir göstərmişdir. Albert Ellis psixoterapiyaya məntiqi və fikri (emotiv - səmərəli terapiya səviyyəsində) daxil etməyə çalışanlardan biri olmuşdur [5]. Bu haqda S.Dennet Deniel belə yazırdı: "Biz,… genetik irsiliyin cığırları üzrə deyil, mədəniyyətin geniş yolları ilə bizə verilmiş, sözün əsil mənasında tarixin və ya tarixdən əvvəlki iğtişaş dövrlərinin dərinliklərində başqaları tərəfindən ixtira edilmiş minlərlə belə faydalı

fəndlərdən istifadə edirik. Bu mədəni irsin sayəsində biz, fikirlərimizi dünyaya necə yaymağı öyrənirik, burada biz, bizim əla qurulmuş anadangəlmə qabiliyyətlərimizə əsasən obrazları izləməyə və tanınmasına yol tapıb onlardan optimal istifadə edə bilirik [1, 145].

Təfəkkür prosesinin imkanları, onun həm mahiyyəti, həm də praktik istifadəsi nöqteyi-nəzərindən sonuna qədər öyrənilməmiş və çətin ki, nə vaxtsa öyrəniləcəkdir: onlar sonsuzdur. Bununla belə hər il insanın təfəkkür fəaliyyətinin müxtəlif istiqamətlərinə aid maraqlı materiallar toplanılır və bu sahədə tədqiatlar aparılır.

Şüur proseslərinin koqnitiv tədqiqinə marağın güclənməsinə imkan yaradan bir neçə səbəb var: elmi-texniki tərəqqinin nailiyyətləri, səhiyyə sahəsində psixologiya, o cümlədən onun tətbiqi sahələrində nailiyyətlər, insanlar arasında ünsiyyətin kommunikativ bazasının, həmçinin fəaliyyətin müxtəlif, xüsusən ictimai (müxtəlif tədbirlərdə çıxışlar və s.) sferalarında ritorik imkanlardan istifadənin genişləndirilməsi və s. Bir çox tədqiqatçılar, o cümlədən psixologiya sahəsində, anlayırlar ki, bu sahədə bir çox konsepsiyalar həm qədim, həm də müasir filosoflar, psixoloqlar, psixoterapevtlər və sosioloqlar tərəfindən xülasə edilmişdi [5, 19-20]. Bu gün də fəlsəfi fikir, əvvəlki əsrlərdə olduğu kimi, kifayət qədər fəaldır, Belə ki, alimlər öz tədqiqatlarında əsas məzmunu və onun istiqamətlərini insan şəxsiyyəti, onun şüuru və düşüncəsi ilə bağlamışlar.

Psixologiya və fəlsəfənin maraqlarının toqquşması və ya uyğunluğunun nöqtəsi həmişə insan düşüncəsi idi; elmi kəşflər insan psixikasının öyrənilməsinə müxtəlif cür yanaşmağa imkan yaratdı, buna görə də, fəlsəfə öz dünyagörüşü yanaşmalarını və daha əvvəl xülasə edilmiş qnoseoloji proseslər barəsində ümumi qanunauyğunluqların məzmununu yenidən qurmaq məcburiyyətində idi. Qnoseoloji problemlərə rasional və intuitivist yanaşmalar ənənəvi olaraq fərqləndirilirdi. İndi oxşar münasibət müşahidə olunur və psixologiyada (məsələn, A.Ellis tərəfindən) rasional düşüncənin imkanları fəal istifadə olunur [5, 161].

Bek bu barədə açıq yazır ki, koqnitiv terapiya şüursuzun konsepsiyasına ehtiyac duymur, psixoloji problemlər isə "adi proseslərin nəticəsi ola bilər, məsələn, yanlış öyrətmə, natamam və ya səhv informasiya əsasında yanləş nəticələrin çıxarılması, uydurma və reallıq arasında dəqiq sərhədi keçirmək bacarıqsızlığı və s. Bundan başqa, düşüncə qeyri-real ola bilər, çünki o, ola bilsin ki, yanlış mühakimələrə əsaslanmışdır; davranış həm də özünə ziyana yönəldilmiş ola bilər, çünki düşüncəsiz quraşdırmalara əsaslanır" [2, 253-254].

Hər iki yanaşma – realistik və koqnitiv, rasional ilə irrasional düşüncənin xüsusiyyətlərinə əsaslanır və şüuraltı ilə bağlıdır. Bu sahə kifayət qədər yaxşı tədqiq edilmişdir, ancaq hal-hazırda terapiyanın koqnitiv imkanları əvvəlki əsrlərə nisbətən daha geniş açıqlanır və istifadə olunur.

Koqnitiv psixologiya adi prosesləri tədqiq etməyə və nəzərə alınmasına üstünlük verir. Bunlar sırasında "yanlış öyrətmə, natamam və ya səhv

informasiya əsasında səhv fikirlərin çıxarılması, uydurmanın və reallığın arasında dəqiq sərhədi keçirmək bacarıqsızlığı, və s. Məlumdur ki, düşüncə qeyri-realist ola bilər, çünki o səhv metodologiyaya əsaslanmışdır; davranış, əgər düşüncəsiz quraşdırmalara əsaslanarsa, onda səhvə yol verilə bilər" [yenə orada].

Düşüncə qanunlarının tədqiqatında yeni yanaşmaların mövcudluğu haqqında həm filosoflar, həm də psixoloqlar (məsələn, B.M.Veliçkovski) yazır. B.M.Veliçkovski qeyd edir ki, "beyin (hər şeydən əvvəl üçölçülü beyin xəritə-çəkməsi əsasında) işinin analizinin yeni metodlarının yaradılması nəticəsində vəziyyət guya "müstəqil" maddələrin böyük qarşılıqlı təsirinin tanınmasına tərəf dəyişməyə başladı. Bundan başqa, paralel və paralel-iyerarxik quruluşlu modellərin yayılmasına görə aparıcı elmi koqnitiv paradiqma bu gün daha çox Leybnitsin monadologiyasını xatırladır. Koqnitiv elmin və onun tətbiqi proqramlarının sonrakı perspektivləri Novalis, Fixte və Heqel tərəfindən ilk dəfə xülasə edilmiş, bir qədər unudulmuş, lakin olduqca məhsuldar fəaliyyət paradiqması ilə tədqiqatların plüralizm üzərində qurulmuş strategiyası ilə bağlanmışdir [6, 282].

Fixte hesab edirdi ki, "yalnız ağıl özündə sonsuza malikdir, çünki o heç vaxt mütləqi dərk etmək vəziyyətində olmamışdır; yalnız mütləq, hansı ki, *formaliter* kimi, heç vaxt başqa cür ağıla daxil olmur, yalnız və yalnız keyfiyyətli, heç vaxt miqdar olmayan vahiddir və s." [7, 371]. O yazırdı ki, bizim düşüncəmiz "fəaliyyətdir, beləliklə, sizin müəyyən düşüncəniz müəyyən fəaliyyətdir, yəni ki, siz məhz ona görə belə düşünürsünüz ki, siz belə hərəkəti məhz düşüncədə edirsiniz" [7, 510].

O, özünün "Mən" konsepsiyasında Mənim haqqımda düşüncənin və özünə istiqamətlənmiş "fəaliyyət"ə ayrılması ehtiyacını vurğulayır. Bu "fəaliyyət" nəticəsində özünün "Mən" haqqında düşüncəsi əmələ gəlir: "Yalnız anlayış yaradan aktın göstərişi vasitəsilə həmin anlayış tamamilə təyin edilir. Mən sənə dediyimi et və sən mən sənə dediyimi düşünəcəksən.… amma yalnız burada, söhbətdə gətirdiyim Mən, yəni hansı ki, yalnız sənin düşüncənin sənə müraciəti vasitəsilə yaranır" [7, 511].

Filosofların, istər klassik istiqamətin (Berkli, Kant, Fixte, Şellinq, həyatın fəlsəfəsinin nümayəndələri Nitsşe, Şopenhauer, Yum, Avenarius, Max), istərsə də müasir fəlsəfənin nümayəndələri, xüsusilə E.Hüsserl, neopozitivistlər bila-vasitə təfəkkür problemləri ilə məşğul olurdular, özü də Fixtenin yaradıcı-lığında gördüyümüz kimi, onun koqnitiv-psixoloji aspektinə böyük diqqət yetirirdilər.

Bu gün Fixtenin ardınca psixoloqlar (Meyhenbaum) iddia edirlər ki, "özünütəlimatlandırma ilə bağlı təlim aşağıdakı ehtimal ilə əsaslandırılmalıdır: "insanların özünə dedikləri onların etdiyi hər şeyi müəyyən edir". Davranış "insan fəaliyyətinin müxtəlif aspektlərinin təsirinə meyillidir, o cümlədən müxtəlif konstruktlarla təyin edilir: fizioloji reaksiyalar, affektiv reaksiyalar,

koqnisiya, həmçinin şəxslərarası qarşılıqlı təsirlə. Daxili nitq, və ya daxili dialoq, fəaliyyətin və ya konstruktların bu növlərindən biridir" [8, 202].

D. Meyhenbaumun vurğuladığı kimi, 70-ci illərin əvvəllərində koqnitiv-bihevioral terapiya (KBT) və koqnitiv-bihevioral modifikasiya (KBM) bihevioral texnikalarla psixodinamik və sistem psixoterapiyasının kliniki məsələlərinin inteqrasiyasına cəhd edirdi. Bütün bu istiqamətlər psixoterapevtik inteqrasiyasının ümumi prosesinə, həmçinin onunla koqnitiv tərəfindən bağlı sahəyə öz töhfəsini verdi,. "Koqnitiv-funksional qiymətləndirmənin hədəfi Mən-fikirlərinin funksional qiymətinin müəyyən növünün ehtimal terminlərində təsvir olur, bu fikirlərin ardınca davranışın və ya insanın emosional vəziyyətinin konkret növləri, məsələn, əhval-ruhiyyə və ya onun fizioloji reaksiyaları, və ya diqqətin bölgüsünün prosesləri və s izlənilir. Daxili dialoqu hansı təsir göstərir və öz növbəsində necə kənardan başqa hadisələr və ya davranış proseslərini necə hiss edir?" [9, 349].

Tədqiqatçıların qeyd etdiyi kimi, koqnitiv elmin əsaslarında təbii, həm də ictimai və humanitar elmlərinir bir çox istiqamətlərinin inkişafı dururdu. İlk metodik yanaşmaları V.Vund tərəfindən hazırlanmışdı, bu işi onun davamçıları, həmçinin fizikalizm istiqamətinin nümayəndələri daha da inkişaf etdirmişlər. Prosesin inkişafı burada ziddiyyətli idi, bunun da təsdiqini psixoloji fikirdə inkişaf etmiş böhranlarda görmək olar. Buraya böyük töhfəni fiziologiyanın və fəaliyyət psixologiyasının nümayəndələri gətirmişlər. Yanaşma müxtəlifliyi həm də, yuxarıda qeyd edildiyi kimi, kompüter texnologiyalarının inkişafı ilə bağlı olmuşdur [6, 90-162].

Hal-hazırda sensor-perseptiv proseslər, şüur və hərəkətə nəzarət, yaddaşın funksional strukturu, biliklərin təsnifləşdirilməsi və təsviri, kommunikasiya və nitq fəallığı, təfəkkür və fövqəldərketmə və s. kimi istiqamətlər fəal şəkildə inkişaf etdirilir [yenə orada]. Burada təhsil işçilərinin də qarşısında bir sıra vacib məsələlər durur. Ilk növbədə hər bir istiqamət üzrə fəaliyyət göstərən kafedralar və digər struktur bölmələrində metodik sahədə aparılan işlərin əsasını koqnitiv elmlərin ən son nailiyyətləri təşkil etməlidir. Təhsil standartlarına daha ciddi riayət olunmalıdır. Hər bir tələbənin koqnitiv fəaliyyətinə aid olan təfəkkür sahələri (yaddaş, təxəyyül, diqqət və s.) xüsusi testlər və digər sorğu materialları vasitəsilə yoxlanılmalıdır ki, tədris prosesi daha faydalı və səmərəli olsun. Bundan başqa, belə yoxlama nəticəsində müəllimin də işlətdiyi tədris materialları, onların tətbiqedilməsi metodikaları da getdikcə təkmilləşdiriləcək ki, təhsilin yüksək nəticələri əldə edilmiş olsun.

Artıq bu istiqamətdə müəyyən işlər aparılır. Ilk növbədə Sosial elmlər və psixologiya fakültəsi nəzdində fəaliyyət göstərən sosioloji və eksperimental psixologiya laboratoriyaları, "İnkişaf" Respublika elmi-praktik mərkəzi bir sıra layihələri həyata keçirərək, təhsilin fəlsəfəsi, şəxsiyyətin milli özünügerçəkləşdirməsini inkişaf etdirmək üçün təhsil sisteminin rolunun artırılması, orta və ali məktəblərdə təlimin praktik, o cümlədən interaktiv təliminin imkanlarından daha geniş istifadə edilməsi kimi məsələləri həll etməyə çalışırlar.

Məsələn, tədqiqatçıların gəldiyi qənaətlərdən biri də ondan ibarət olmuşdur ki, şəxsiyyətin mədəniyyət kontekstində özünügerçəkləşdirmə imkanlarını istiqamətləndirmək üçün inkulturasiya prosesinin psixoloji mexanizmlərinin öyrənilməsi vacibdir, çünki bu prosesin mexanizmlərinin öyrənilməsi mədəni dəyərlərin assimlyasiyasının qarşısını alır, milli təfəkkürün və özünütəsdiqin adekvatlığını təmin edir. Təhsildə olan universal imkanlarından faydalanmaq, şəxsiyyətin hərtərəfli inkişafına şərait yaratmaq üçün sosial və humanitar elm sahələrinin sıx əməkdaşlığı təmin olunmalıdır. Burada infrastruktur əhəmiyyətli köməkçi sahə də var – İKT. İKT-nin yaratdığı hədsiz imkanlardan düzgün bəhrələnən hər bir təhsil işçisi tədrisdə yüksək göstəriciləri əldə edə bilər.

Hal-hazırda bir çox ölkələrdə koqnitiv elmlər və onların tətbiqi məsələləri ilə bağlı yeni tədqiqat sahələri və tədris proqramları yaradılır. Məsələn, Rusiyanın Ali İqtisad Məktəbində, Psixologiya fakültəsində yeni, “Koqnitiv Elmlər və Texnologiya: neyrondan biliyə doğru” magistr proqramı yaradılmışdır. Bu, fənlərarası proqramdır. Diqqət mərkəzində həm psixoloqlar, həm də riyaziyyatçılar, menecerlər, dilçilər, ictimai elmlərin nümayəndələri, iqtisadçılar üçün maraqlı ola biləcək bir sıra sahələrinin öyrənilməsidir, o cümlədən insan tərəfindən informasiya emalı prosesləri, təhsil proqramı iki mümkün istiqamət - idrak psixologiyası və idrak psixofiziolologiyası üzrə aparıla bilər [10].

**Nəticə**. Koqnitiv elmlər üzrə IV Beynəlxalq konfransında R. Şenka öz məruzəsində təhsil sistemində təfəkkür təbiətinin anlamında elmin koqnitiv nailiyyətlərinə əsaslanan transformasiya üzrə təkliflər irəli sürmüşdür. Onun proqramında on iki fundamental koqnitiv proses seçilmişdir: modelləşdirmə, sınaq, proqnoz, qiymətləndirilmə, diaqnoz, planlaşdırma, səbəbiyyət, fikir, danışıqlar və ya razılaşmaq bacarığı, təsir, komandada işləmək bacarığı, təsvir. Bu prinsipləri, ən erkən yaşdan başlayaraq, sonra isə məktəbdə və hətta universitetlərdə təhsilin əsası kimi, hamıya öyrətmək lazımdır. Prinsiplərin sayı əhəmiyyətli deyil, düşünmək bacarığını formalaşdıran üç fundamental bacarığı seçmək olar ki, onlar xüsusilə əhəmiyyətlidir:

1) təsvir etmək qabiliyyəti olan təsviri funksiya, yəni özünü ifadə etmə qabiliyyəti; 2) diaqnoz qoymaq bacarığı intellektual proses kimi, bu zaman “nə” və “necə olur” anlamaq bacarığı formalaşır; 3) Onsuz hər hansı bir fəaliyyət qeyri-mümkündür: bu, əsas proses olan planlaşdırmadır. Təhsil qaydaları və düsturları məcburi öyrədən yer yox, həyatda bizə kömək edəcək koqnitiv bacarıqların tədrisi olmalıdır [11, 114].

Göründüyü kimi, fəlsəfə, mədəniyyətin (Rusiya alimi V.S.Styopinin terminologiyası üzrə) universaliyaların mahiyyətinə əsaslanaraq, humanitar elmlərə (həmçinin psixologiyaya), o cümlədən insan düşüncəsi ilə əlaqədar olaraq özünü inkişaf etdirmənin qabiliyyətini aşılamağı bacardı. Texnikanın və insan sivilizasiyasının inkişaf tarixi bütün koqnitiv elmlərin insan inkişafının universal ensiklopediyaya çevrilməsinə imkan yaradırdı. Demək olar ki, hər gün o, yeni biliklərlə, bacarıqlarla və qabiliyyətlərlə zənginləşir.

**ƏDƏBİYYAT**

1. Дэниел С. Деннет. Виды психики: на пути к пониманию сознания. Перевод с английского Андрея Веретенникова. Под общей редакцией Л.Б.Макеевой. ИДЕЯ-ПРЕСС. М.: Наука, 2004, 185 с.
2. Сесил Паттерсон, Эдвард Уоткинс. Теории психотерапии. 5-ое изд., 1997.
3. Синергетическая парадигма. Когнитивно-коммуникативные стратегии современного научного познания. Издательство: Прогресс-Традиция, 2004, 560 с. http://myword.ru/
4. Современный когнитивизм: философия, когнитивная наука, когнитивные дисциплины (материалы научной конференции)// «Вопросы философии», 2006, №1/
5. Эллис А., Драйден У. Практика рационально-эмоциональной поведенческой терапии. СПб., Речь, 2002, с. 19-20.
6. Величковский Б.М. Когнитивная наука: Основы психологии познания. В 2-х т. Т. 1 / Борис М.Величковский. М.: Смысл: Издательский центр «Академия», 2006, 448 с.
7. Фихте И.Г. Избранные сочинения. Под редакцией кн. Е.Трубецкого. Т.1. Путь. М., 1916, 520 с.
8. Meichenbaum D. Cognitive behavior modification: An integrative approach. New York: Plenum, 1977, p.256.
9. Breger, L., & McGaugh, J. (1965). Critique and reformulation of “learning theory”: Approaches to psychotherapy and neurosis. Psychological Bulletin 63, 2010, c. 338-358.
10. На факультете психологии ВШЭ создана англоязычная магистерская программа «Когнитивные науки и технологии: от нейрона к познанию» // http://www.hse.ru
11. Черникова И.В. Когнитивные науки и когнитивные технологии в зеркале философ-ской рефлексии // Эпистемология и философия науки, XXVII. 1. М.: Альфа, 2011, с.101-117

## МЕТОДОЛОГИЧЕСКОЕ ЗНАЧЕНИЕ КОГНИТИВНЫХ НАУК В ФОРМИРОВАНИИ «ОСТАТОЧНЫХ» ЗНАНИЙ

**А.Г.КАЗЫМЗАДЕ, Р.М.МАХМУДОВА, Г.Я.АББАСОВА**

### РЕЗЮМЕ

В современном мире, с утратой некоторых философских основ мировосприятия, в частности, связанных с онтологическими представлениями о целостности мира и взаимосвязанности мироздания и человека, компенсация их в общественном сознании пошла в направлении углубленного самоанализа. Особенно стоит выделить здесь когнитивные процессы. Известно, что современные философские концепции больше связаны с проблемами человеческого существования, разные аспекты которого здесь стремятся исследовать в комплексе с другими научными сферами, в том числе с психологией. Вопросы когнитивного развития особенно важны в процессе обучения, при социализации личности, подготовке специалистов и в самообразовании.

**Ключевые слова**: философия, методология, когнитивная психология, обучение, подготовка специалистов, самообразование

## METHODOLOGICAL SIGNIFICANCE OF COGNITIVE SCIENCE IN THE FORMATION OF THE "RESIDUAL" KNOWLEDGE

**A.H.KAZIMZADƏ, R.M.MAHMUDOVA, G.Y.ABBASOVA**

**SUMMARY**

In today's world, with the loss of some philosophical foundations of attitude, in particular related to the integrity of the ontological conceptions of the world and the interconnectedness of the universe and man, their compensation in the public mind went in the direction of deep introspection. Cognitive processes are particularly remarkable here. It is known that modern philosophies are more concerned with the problems of human existence, different aspects of which tend to study as a complex with other scientific areas, including psychology. Cognitive development issues are particularly important in the learning process, socialization of personality, training and self-education.

**Key words**: philosophy, methodology, cognitive psychology, education, training, self-education

***Bu iş Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun maliyyə dəstəyi ilə yerinə yetirilmişdir Republic qrant № EİF - 2012 - 2 (6) - 39 / / 30/5***